# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 157** **Bakı şəhəri, 15 aprel 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2002-ci il 10 may tarixli 78 nömrəli, "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2004-cü il 4 mart tarixli 24 nömrəli, "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli, "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin təsdiq edilməsi barədə" 2018-ci il 12 yanvar tarixli 12 nömrəli, "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"nın təsdiq edilməsi haqqında" 2018-ci il 26 fevral tarixli 62 nömrəli, "Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 28 fevral tarixli 64 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 dekabr tarixli 1502 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 315; 2005, № 3, maddə 255; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857; 2017, № 4, maddə 629, № 10, maddə 1910, № 12 (II kitab), maddə 2518; 2018, № 5, maddə 1150, № 11, maddə 2458; 2020, № 2, maddə 216, № 10, maddə 1300; 2021, № 9, maddə 1085) ilə təsdiq edilmiş "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"nin 61-ci hissəsinin ikinci cümləsindən "(yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan məktəbəqədər xüsusi təhsil müəssisələrinin nizamnamələri istisna olmaqla)" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 mart tarixli 24 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 191; 2007, № 2, maddə 185; 2008, № 2, maddə 130; 2009, № 10, maddə 857; 2012, № 3, maddə 255; 2017, № 10, maddə 1912; 2018, № 5, maddə 1149, № 11, maddə 2458; 2020, № 10, maddə 1300; 2021, № 9, maddə 1070) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci hissədə "yerli icra hakimiyyəti orqanlarının" sözləri "Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra – Nazirlik)" sözləri ilə əvəz edilsin;

2.2. 17-ci hissədə "Azərbaycan Respublikasının Təhsil Nazirliyi" sözləri "Nazirlik" sözü ilə əvəz edilsin;

2.3. 28-ci, 33-cü hissələrdə, 42-ci hissənin birinci abzasında "yerli icra hakimiyyəti orqanları" sözləri "Nazirlik" sözü lə əvəz edilsin;

2.4. 30-cu hissədə "yerli icra hakimiyyəti orqanları" sözləri "Nazirlik" sözü ilə əvəz edilsin və "təhsil," sözü çıxarılsın;

2.5. 37-ci hissənin ikinci cümləsindən "və ya yerli" sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1000; 2017, № 4, maddə 613, № 12 (II kitab), maddə 2515; 2018, № 5, maddə 1148, № 11, maddə 2430; 2019, № 8, maddə 1472; 2020, № 8, maddə 1121, № 11, maddə 1410) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 6.10-cu bəndinin birinci və ikinci cümlələrindən "və ya yerli" sözləri çıxarılsın.

**4.** "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 yanvar tarixli 12 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 128; 2020, № 9, maddə 1203; 2021, № 1, maddə 100) 2-ci hissəsindən "və yerli" sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 fevral tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 365; 2020, № 11, maddə 1403; 2021, № 11, maddə 1256) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"nın 3.3-cü bəndi aşağıdakı redaksiyada verisin:

"3.3. Dövlət xüsusi məktəbəqədər təhsil müəssisəsinə Azərbaycan Respublikası təhsil nazirinin təyin etdiyi şəxs rəhbərlik edir.".

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 fevral tarixli 64 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 367, № 11, maddə 2433; 2020, № 11, maddə 1409) ilə təsdiq edilmiş "Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4.4-cü bənddə "yerli icra hakimiyyəti orqanına" sözləri "Azərbaycan Respublikasının Təhsil Nazirliyinə (bundan sonra – Nazirlik)" sözləri ilə əvəz edilsin;

6.2. 4.6-cı, 6.8-ci, 11.3-cü və 11.8-ci bəndlərdə ismin müvafiq hallarında "yerli icra hakimiyyəti orqanı" sözləri ismin müvafiq hallarında "Nazirlik" sözü ilə əvəz edilsin;

6.3. 6.9-cu bənddə "Yerli icra hakimiyyəti orqanı" sözləri "Nazirlik" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti 2022.- 17 aprel.- S.5.